DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!

AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!

# Şəmkir rayonunda da YAP-ın parlament seçkilərində namizədlərinin təbliğat-təşviqat kampaniyasına uğurla start verilib






Fevralın 9-da ölkəmizdə keçiriləcək VI çağırış Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülmüş namizədlərin təbliğat-təşviqat kampaniyasına YAP Şəmkir rayon təşkilatı tərəfindən də uğurla start verilib.

Kampaniya çərçivəsində partiyanın deputatlığa namizədləri - 98 saylı Şəmkir şəhər seçki dairəsi üzrə Qafarova Sahibə Əli qızının, 99 saylı Şəmkir kənd seçki dairəsi üzrə Həsənov Nurlan Urfan oğlunun və 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi üzrə Bayramov Kamran Fərhad oğlunun, üzərində Yeni Azərbaycan Partiyasının "Daha güclü Azərbaycan naminə" şüarı yazılan təbliğat plakatları müvafiq məntəqə seçki komissiyalarının təbliğat lövhələrinə yerləşdirilib.

Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının gənc fəalları və könüllülərinin iştirakı ilə təbliğat-təşviqat kampaniyası yüksək səviyyədə və mütəşəkkil başlanılıb.

Təbliğat-təşviqat kampaniyası müddətində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Şəmkir rayon şöbəsi öncədən təsdiq olunmuş qrafikə uyğun olaraq mütəmadi təbliğat görüşləri keçirəcək və seçicilərin seçki prosesinə fəal qoşulması istiqamətində silsilə görüşlər təşkil edəcək.

# 17 saylı Yasamal üçüncü seçki dairəsindən YAP-ın deputatlığa namizədi Elnur Allahverdiyev təbliğat kampaniyası çərçivəsində ilk görüşünü keçirib




Fevralın 9-da keçiriləcək parlament seçkilərində iştirak edən Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. 17 saylı Yasamal üçüncü seçki dairəsindən YAP-ın deputatlığa namizədi Elnur Allahverdiyev təbliğat kampaniyası çərçivəsində ilk görüşünü partiyanın Yasamal rayon təşkilatının binasında yerli fəallarla keçirib.



Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov 17 saylı Yasamal üçüncü seçki dairəsindən deputatlığa namizəd E.Allahverdiyev barədə məlumat verərək bildirib ki, YAP bu seçkilərdə 123 namizədlə təmsil olunur. Parlament seçkilərinə namizədliyi irəli sürülənlər arasında gənclərin də çoxluq təşkil etdiyini bildirən T.Əhmədov qeyd edib ki, bütün seçkilərdə uğurlu qələbə əldə etmiş YAP-ın fevralın 9-da keçiriləcək parlament seçkilərində də zəfər qazanacağına tam əmindir.

Çıxış edən 17 saylı Yasamal üçüncü seçki dairəsindən YAP-ın deputatlığa namizədi E.Allahverdiyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Milli Məclisə seçkilərdə partiya sıralarından namizədliyi irəli sürülmüş gənclərə böyük etimad göstərdiyini bildirib və qeyd edib ki, aktiv təbliğat kampaniyası keçirib qələbə qazanmaqla bu etimadı doğrultmağa çalışacaq. Yasamal rayonunun Bakının ən sürətlə dəyişən və yenilənən rayonlarından olduğunu deyən E.Allahverdiyev millət vəkili seçiləcəyi təqdirdə aparılan abadlıq və quruculuq işlərinə hər cür dəstək və kömək göstərməyə hazır olduğunu söyləyib. E.Allahverdiyev qeyd edib ki, partiya rəhbərliyi tərəfindən onun qarşısına seçicilərin rəğbətini qazanmaq, seçkilərdə qələbə çalıb sıravi vətəndaşlara xidmət etmək vəzifəsi qoyulub. Tədbirdə çıxış edən şəxslər 17 saylı Yasamal üçüncü seçki dairəsinin inzibati ərazisində yaşayan seçicilərin E.Allahverdiyevə səs verəcəklərinə əminliklərini ifadə ediblər.

# Deputatlığa namizəd Aydın Mirzəzadə Mingəçevirdə seçicilərlə görüşüb



Yanvarın 17-də parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 47 saylı Mingəçevir seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Aydın Mirzəzadə seçicilərlə ilk görüşünü keçirib.

Görüşü açan YAP Mingəçevir şəhər təşkilatının sədri Cavanşir Yusubov YAP-ın namizədi Aydın Mirzəzadənin tərcümeyi-halı haqda məlumat verib, onun deputat kimi fəaliyyətinin Mingəçevirlə sıx bağlı olduğunu bildirib.

Çıxış edən deputatlığa namizəd Aydın Mirzəzadə V çağırış Milli Məclisin işindəki fəaliyyətindən danışıb. O, seçicilərin yenidən etimad göstərəcyi halda parlament müstəvisində görəcəyi işlərdən danışıb.

Görüşdə iştirak edən seçicilər isə 9 fevral parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini diqqətə çatdırıblar.

# YAP Səbail rayon təşkilatı VI çağırış Milli Məclis seçkilərinin təşviqat mərhələsinə start verib




Fevralın 9-da keçiriləcək VI çağırış Milli Məclis seçkiləri ilə əlaqədar dünən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsində seçki qanunvericiliyinə uyğun olaraq Yeni Azərbaycan Partiyası tərəfindən 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Hüseynova Aytən Arif qızının təşviqat kampaniyasına start verilib.



Partiyanın gənc fəallarından təşkil olunmuş bir neçə komanda səhər saatlarında Milli Məclis seçkiləri ilə bağlı təşviqat materiallarını 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri üzrə ümumilikdə 40 seçki məntəqəsinin ərazisində quraşdırılmış təşviqat lövhələrinə vurmağa başlayıblar.

Tərtib olunmuş təbliğat-təşviqat qrafikinə uyğun olaraq 18 yanvar tarixindən başlayaraq rayon seçiciləri ilə görüşlər keçiriləcək.

**MÜŞFİQƏ**

# Deputatlığa namizəd Fatma Yıldırım Bərdə rayon ağsaqqalları və Qarabağ müharibəsi əlilləri ilə görüş keçirib




Ölkəmizdə keçiriləcək parlament seçkiləri ilə əlaqədar yanvarın 17-də Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Fatma Yıldırımın Bərdə rayon ağsaqqalları və Qarabağ müharibəsi əlilləri ilə görüşləri keçirilib.



Görüşləri YAP Mərkəzi Seçki Qərargahının Bərdə rayon şöbəsinin sədri Fəqət Şadlinskaya açaraq bildirib ki, bu günə qədər keçirilən bütün seçkilərdə partiyamızın namizədlərinin qələbə qazanması, Azərbaycanın rifahı və quruculuğu naminə fəaliyyət göstərməsi xalqda partiyamıza və onun parlamentdəki təmsilçilərinə böyük rəğbət qazandırıb. Təşkilat sədrinin sözlərinə görə, 9 fevralda keçiriləcək parlament seçkilərində də namizədlərimizin dəstəklənəcəyinə əminik: **"Çünki cənab İlham Əliyevin Sədrliyi ilə Yeni Azərbaycan Partiyası xalqımızın həyatında müstəsna xidmətləri ilə seçilən partiyadır. Parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən ən layiqli namizədlər irəli sürülüb və buna görə də partiyamız əvvəlki seçkilərdə olduğu kimi, budəfəki seçkilərdə də qələbə qazanmaq əzmindədir".**

Görüşlərdə çıxış edən deputatlığa namizəd Fatma Yıldırım ilk olaraq göstərilən etimada görə Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib. Fatma Yıldırım seçicilərə Yeni Azərbaycan Partiyasının seçki platforması və öz fəaliyyəti barədə ətraflı məlumat verib. O qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan uğurlu islahatların nəticəsidir ki, dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır: **"Bütün bunlara görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə təşəkkür edirik".**

Görüş iştirakçılarından İslam Əzimov, Yaşar Zamanov, Xosrov Musayev, Əliş Şərifov, Bəhrəm Nərimanov, İsmayıl Rüstəmov, Rizvan Qasımov və Samir Səfərov çıxış edərək Yeni Azərbaycan Partiyasının namizədinin ilk görüşünü rayon ağsaqqalları və Qarabağ müharibəsi əlilləri ilə keçirməsini yüksək qiymətləndiriblər. Natiqlər seçicilərin 9 fevral parlament seçkilərində YAP-ın namizədi Fatma Yıldırıma səs verəcəklərini bildirib və onun qalib gələcəyinə əminliklərini ifadə ediblər.

Sonda YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya seçiciləri seçki günü fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

# Samuxda YAP-ın deputatlığa namizədinin seçicilərlə görüşü olub

Yanvarın 17-də parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 102 saylı Samux-Şəmkir seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Nizami Səfərovun Samux rayonunun Poylu, Qarabağlı, Kəsəmən, Salahlı və Burunqovaq kəndlərində seçicilərlə görüşü olub.



Görüşlərdə çıxış edən N.Səfərov qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu seçkilərə böyük ruh yüksəkliyi və möhtəşəm qələbə əzmi ilə qatılır. O, Ümummilli Liderin ideyaları əsasında fəaliyyətini davam etdirən Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçdiyini vurğulayaraq seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.


